Dünya Dilleri, Edebiyatları ve Çeviri Çalışmaları Dergisi (DEDÇED)
Journal of Academic Studies in World Languages, Literatures and Translation (WOLLT)

WOLLT, 2020; 1(1), 59-70

# YUSİF XAS HACİB'İN "QUTADQU-BİLİK" ƏSƏRİNDƏ TÜRK DÖVLƏT MODELİ[1]

Aynur Cəlilova[2]

**APA:** Cəlilova, A. (2020). Yusif Xas Hacib'in "Qutadqu-Bilik" əsərində Türk dövlət modeli. *Dünya Dilleri, Edebiyatları ve Çeviri Çalışmaları Dergisi, 1*(1), 59-70.

## ÖZET

*Türk ədəbiyyatının "Şahnamə" si və "Siyasətnamə"si kimi qəbul edilən "Qutadqu-bilik" əsəri həqiqətən də xoşbəxtlik elminin açarıdır. Bu əsərdə əxlaq, mənəviyyat, ləyaqət məsələlərinin işığında türk dövlət modeli işlənib hazırlanmışdır. Dövlət quruculuğu, ordu təşkili, dövlət orqanları, demokratik prinsiplər və b. məsələlər bu möhtəşəm əsərdə diqqətə çatdırılır. Yusif Xas Hacib insan xoşbəxtliyinin dört ünsürlə əlaqəli olduğuna diqqət çəkmişdir. Bunlardan birincisi, ədalət prinsipidir, xüsusilə, dövlət başçılarında olmalıdır. İkincisi dövlətdir, hər vətəndaşın arxası, dayağı kimi qəbul edilir, xalqın rifahının qarantıdır. Üçüncüsü idrakdır, insanda ən dəyərli cövhər olaraq qəbul edilir. Dördüncüsü, təsərrüfdür ki, insan sağlamlığına xidmət edər. Bu keyfiyyətlər şairin təqdim etdiyi Turan dövlətinin təmsilçilərində vardır. XI yüzildə yazılmasına baxmayaraq, bugün də dövlət qurma, idarəçilik, idarəedici adamların seçilməsində bu əsər misilsiz bir nümunədir. Burada şahın xalqa münasibəti, ordunun qorunması, az ordu ilə düşməni məğlubetmə üsulları, səfirlərin seçilməsi, məhkəmə işləri, şahın qoruma sistemi, layiqli xidmətçilərin mükafatlandırılması, xəzinənin doldurulması, iqtisadiyyatın inkişafı, bəylər və bəyliklər, haciblik, xarici işlər nazirinin dövlətin xarici siyasətində rolu məsələləri işıqlandırılmış, hətta dövlət qulluqçularının yemək və içmək, özünü idarə etmək qaydaları da daxil edilmişdir. Yüksək əxlaqi dəyərləri dövlətin idarəedici şəxslərinə aşılayan şair onları pis vərdişlərdən – yalandan, xəsislikdən, əyyaşlıqdan, qumardan, rüşvətdən, oğurluqdan, saxtakarlıqdan uzaq olmağı tövsiyə edir.*

***Açar sözlər:*** *Türk dövləti, Əxlaq, Dövlət Qanunu, Hökmdar, Xalq*

**Geliş Tarihi:** 07.02.2020 **Kabul Tarihi:** 06.06.2020

[1] Bu çalışmanın bir bölümü, Bandırma Onyedi Eylül Üniversitesi tarafından 26-28 Eylül 2019 tarihlerinde düzenelenen International Conference on Academic Studies in Philology (BICOASP) başlıklı konferansta çağrılı bildiri olarak sunulmuştur.

[2] Doç. Dr., Azərbaycan Milli Elmlər Akademiyası, Folklor İnstitutu (Baku, Azerbaycan), e-posta: celilova1976@mail.ru, ORCID ID: 0000-0003-3015-6412

WOLLT, 2020; 1(1), 59-70

# TURKISH STATE MODEL
# IN THE "GUTADGU-BİLİK" BY YUSIF KHAS HAJIB

## ABSTRACT

*The work "Gutadgu-bilik" accepted as "Shahname" and "Siyasatnama" of Turkish literature, is truly a key to happiness science. The Turkish state model was developed in light of ethics, morality and dignity issues in this work. State building, army organization, state bodies, democratic principles and other issues draw attention in this magnificent work. Yusif Khas Hajib noted that human happiness is linked to four elements. The first one is the principle of justice, especially in the heads of state. The second one is the state, regarded as the backbone of every citizen, and is a guarantor of the welfare of the people. The third is the cognition, the most valuable essence in the human being. The last one is a possession that serves human health. The representatives of the state Turan presented by the poet bear these qualities. Although it was written in the 11th century, this work is an unprecedented example in the selection of state-owned governance for guiding people. The issues have been highlighted here such as the king's attitude to the people, the protection of the army, the methods of defeating the enemy with a small army, the selection of ambassadors, court proceedings, the king's defense system, the rewarding of worthy officers, the development of the economy, and even the rules of eating and drinking and self-governance of civil servants. The poet tanning high moral values to the government officials recommends them avoiding bad habits – lie, covetousness, gambling, bribery, theft, and fraudulence.*

***Key Words:*** *Turkish state, Morality, State law, Ruler, People*

Türk ədəbi əsərləri içərisində "Qutadqu-bilik" misilsiz əsər hesab olunur. Burada cəmiyyətə, dövlətə lazım olan bütün məsələlər əksini tapmışdır. Xoşbəxtliyin açarı bu əsərin beytlərindədir. Xalqın, millətin xoşbəxtliyi dövlətin güclü və ədalətli idarəçilyindən asılıdır. Bu əsərdə türk dövlətçiliyi, onun idarə olunması, kadrların seçilməsi, ordu quruculuğu, xalqın rifahı məsələləri genişliklə izah olumuşdur.

Əsərin müəllifi Buğra xanın sarayında haciblik vəzifəsini icra edən Yusif Balasaqunludur. Şair ideal türk dövlət modelini verdiyi "Qutadqu-bilik" əsəri həm öz zamanında, həm də sonrakı dövrlərdə məşhur əsər olmuş, türk millətinin konstitusiyası statusu qazanmışdır. Bu əsər o qədər şöhrətli olmuşdur ki, sorağı dünyanın dörd bir tərəfinə yayılmış, Şərq xalqları arasında qiymətli gövhər qədər

dəyərli olmuşdur. Çin, Maçin, İran, Turan ellərində məşhur olan bu əsəri müxtəlif adlarla adlandırmışlar: çinlilər "Mülkün ədəbi", maçinlilər "Məmləkətin aynası", şərqlilər "Əmirlərin zinəti", farslar "Türkün Şahnaməsi", türklər isə "Xoşbəxtlik elmi" (Qutadqu-bilik) deyərdilər. Heç bir əsər bu qədər yayğın və şöhrətli olmamışdır. Şair özü bu barədə deyir:

Maçin alimləri, Çin həkimləri,

Onun heyranıdır haçandan bəri.

Dolaş Türküstanı, Məşriqi çox-çox,

Cahanda bu qədər ülvi kitab yox (Balasaqunlu, 2003, 16).

Hacib bu əsəri türkcədə yazmış və belə bir əsərin türklərə məxsus olması ilə öyünmüşdür. Əsərdə şahın məmləkəti idarəetmə yolları, dövlət qurma üsulları, idarəçiliyin yolları, dövləti təmsil edən adamların şəxsi keyfiyyətləri, ordu idarəçiliyi, xarici siyasətin qurulması, səfirlərin, elçilərin təyinatı, iqtisadiyyatın idarə olunması, xəzinənin doldurulması, məhkəmə işləri, mühafizə sisteminin təşkili, layiqli xidmətçilərin mükafatlandırılması və dövlət qurma işlərində yüksəldilməsi, xalqın idarə olunması, məhkəmə, qanunvericilik, dövlətin xalqa qayğısı, arxa durması və s. məsələlər türk dövlətçilik prinsiplərinə uyğun şəkildə diqqətə çatdırılmışdır.

Şair bu əsərdə dövlətçiliyin məğzində 4 əsas şərtin olduğunu göstərir: ədalət, dövlət, idrak, qənaət. Ədaləti hökmdar Gündoğdu, dövləti vəzir Aydoldu təmsil edir. İdrak, təfəkkür vəzirin oğlu Ögdülmüşün simasındadır. Qənaət isə Ögdülmüşün qardaşı Özğurmuşa məxsusdur.

Əsər Allahın, peyğəmbərin tərifi, xəlifələrin fəzilətlərini sadalamaqla başlayır. Ondan sonra ənənəyə uyğun olaraq "şövkətli, zəfərli, mədədli, həqiqət və din dayağı" Tavğaç Ulu Buğra Qara Xanın mədh olunması, onun dövlətin dayağı, millətin tacı olması vurğulanır. Şair dövlətin rəmzi saydığı Gündoğdunu təqdim edərkən onun əməli saleh, dürüst, ağıllı, savadlı, düşmənə amansız, doğru siyasət yeridən el başçısı olduğunu göstərir. Bu keyfiyyətlərə görə Tanrı ona hökmdarlıq və var-dövlət qismət etmişdir. Əgər bu xoşbəxtliyi Tanrı ona qismət edibsə, o da xalqa qarşı mərhəmətli və xoşrəftar olmalıdır:

Kimin ki, başından aşır dövləti,

O gərək yürütsün xalq siyasəti (Balasaqunlu, 2003, 53).

Balasaqunlunun dövlət rəmzlərini Günəş və Ayla bağlaması təsadüfi deyil. Oğuznamədən başlamış bu ənənə türk millətinin dövlətçilik görüşlərinin kosmoqonik gücə bağlı tərəfini ortaya qoyur(şəkil 1). Oğuz Xaqanın taxtının sağ tərəfində Gün xan, Ay xan, Ulduz xan oturur və dövlətin əsas dayağı onlardır. Oğuzdan sonra onun taxtına Gün xan oturur, Gün xandan sonra oğlu Dib Yavqu, sonra onun oğlu Kurs Yavkuy və s. (Oğuznamə, 1992, 41). Dövlət idarəçiliyi, hakimiyyət Gün xanın nəslinə mənsubdur. Günəş türk xalqlarında hakimiyyət simvolu olmaqdan əlavə baş tanrı sayılmış,

WOLLT, 2020; 1(1), 59-70

sitayiş obyekti olmuşdur, onun yerdəki atributu od, alov sayılırdı. Azərbaycanda olan atəşgədələr, qəbir daşlarında rast gəldiyimiz buta işarələri odun, Günəşin rəmzini daşıyan daş abidələrdir. Azərbaycan folklorunda Günəşlə, Ayla bağlı əfsanə və rəvayətlər təbiət, kosmos haqqında ilkin təsəvvürlərin xalq təfəkküründə formalaşmış nümunələridir. Bu nümunələrə başqa türk xalqlarında da rast gəlinir.

Gündoğdunun dövləti möhkəm, xalqı xoşbəxtdir, çünki, o, ilk növbədə ədalətli sultandır. Onun hökmü hamıya qarşı eyni dərəcədədir. Günəş sabit, tərpənməz ulduz kimi yer üzünə eyni səviyyədə işıq saçır, hökmdarın da qanunu hamıya qarşı eynidir. Buna görə də şair ədalətli şah Gündoğdunu epitet olaraq Günəşə bənzətmişdir:

İşdə hökmüm qəti, ədalətim çox,

Bəymidir, qulmudur, mənə dəxli yox.

Mən də Günəş kimi yox olmam, varam,

Hamıya eyni cür işıq saçaram (Balasaqunlu, 2003, 69).

Vəzir Aydoldu oğlu Ögdülmüşə nəsihət verərək Gündoğdu kimi ədalətli olmağı tövsiyyə edir. Xüsusən, dövlət işlərində ədalətli olmaq birinci şərtdir:

Dünyaya hökmran olmaq istəsən,

Haqqı, ədaləti əldən vermə sən (Balasaqunlu, 2003, 122).

Türkün ədalət prinsipi bütün dövrlərdə aktual olmuş və şifahi ədəbiyyatda motiv kimi işlənmişdir. Nizaminin, Füzulinin əsərlərində türk ədaləti məsələsinə yer verilmiş, ədalətli türk obrazları yaradılmışdır. Türkün qılıncı ədaləti bərpa etmək üçün çalınıb, harda olursa olsun və kim olursa olsun, sevənləri qovuşdurmaq, zalımı cəzalandırmaq üçün vuruşub, çarpışıb, özünün ədalət carçısı olduğunu sübut edib. Azərbaycan dastanlarında bunu açıqca görmək olar, məsələn, "Kitabi-Dədə Qorqud" da Beyrək, "Əsli və Kərəm" də Paşa, "Qurbani" də Şıx oğlu Şah, "Leyli və Məcnun" da Nofəl, "Koroğlu" da Koroğlu, "Miskin Abdal və Sənubər" də Qaçaq Mehdi ədaləti bərpa etmək yolunda qılınc çalıb mübarizə aparan türk obrazlarıdır (Cəlilova, Elm və həyat, 2017, 29).

Əmir Teymur tüzüklərində səltənəti idarə etməyin 12 şərti olduğunu qeyd edir, onlardan başlıcası ədalətli olmaqdır. Həm padşahlar, həm də vəzirlər ədalətli olmalıdırlar ki, məmləkət abad, xalq da xoşbəxt olsun. Əmir Teymurun fikrincə, şah ədalətli olmasa da vəzir mütləq ədalətli olmalıdır, çünki dövləti idarə edən vəzirdir. Vəzir zalım, öz xeyrini güdən olsa ölkə tez bir zamanda xarabaya çevrilər. Əmir Hüseynin ölkəsi ədalətsiz, zalım vəzirin ucbatından yaşanılmaz hala düşür (Əmir Teym. vəs., 1991, 62). Əmir Teymur 9-cu gənəşiyində qeyd edir: "... qərara gəldim ki, əgər səltənət əlimə keçəcək olsa hər yerdə ədaləti bərpa edəcəyəm" (Əmir Teym. vəs., 1991, 21). F. Rəşidəddin "Oğuznamə" əsərində Oğuz Xan nəslindən gələn hökmdarların ölkəni ədalətlə idarə etdiyini,

WOLLT, 2020; 1(1), 59-70

haqsızlığa yol verilmədiyini göstərir. Göl Erki Xan şahlıq taxtını Tuman xana təhvil verərkən onun qarşısında şərt qoyur ki, ata-babaları kimi ədalətli olsun, haqsızlığa yol verməsin (Oğuznamə, 1992, 47). "Oğuznamə" müəllifi Rəşidəddin Yusif Xas Hacibin sultanı Qara Xan oğlu Buğra Xanın ədalətli padşah olduğunu, xalqın firavan, bolluq içində yaşadığını vurğulayır (Oğuznamə, 1991, 49).

İslam ölkələrinin hüquq nəzəriyyələrinə həsr olunmuş əsərlərdə ədalət mühakiməsindən danışılır. İslam ölkələrində qanunun aliliyi əsas götürülmüş, haqq-ədalətin yerini tutmasında əsas faktor olmuşdur. Elxani hökmdarı Qazan xan dövləti möhkəmləndirmək üçün islahatlar tərtib etmişdi. Həmin islahatlar bir neçə bölgüyə, qanunvericiliyə ayrılmışdı: islamın qəbulu və möhkəmləndirilməsi, hərbi iş və qoşun saxlanması, təsərrüfat iqtisadiyyatının idarə olunması, torpaq və rəiyyətin hüquqları, ticarət və maliyyə qaydaları, saraydaxili idarəçilik, daxili qayda-qanunlara əməl olunması, ədalət mühakiməsi və mülkiyyət tələbləri. Göründüyü kimi, dövlətin idarə olunmasında əsas meyarlardan biri də ədalət mühakiməsi haqqında qanunvericilik olmasıdır. Qazan xan məhkəmə sistemində dəyişiklik etmiş, qazıların səlahiyyətini artırmışdı: "Təyin olunmuş qazılardan ədalətli olmaları barədə iltizam alınır, hər ay qərarların surəti vilayət qazısına göndərilirdi" (Cəlilov, 1995, 25, 39). Qazının, dövlət başçısının və vəzirin düzgün seçilməsi – xalqa xidmətdə bu üç nəfərin kamil olmasının şərti vacibdir.

Mütəfəkkir şair dövlət quruculuğunun üçüncü şərti kimi ordunun möhkəmliyini, maddi bazasının güclü olmasını göstərir:

Dövlət möhkəmlikdə dağ olsun deyə,

İki qüdrət gərək yurda, ölkəyə.

Orduya zər, gümüş, ənam verəsən.

Xalqı ədalətlə sevindirəsən (Balasaqunlu, 2003, 145).

Ordu təşkilatçılığı və təminatı türk dövlətləri üçün həmişə ön planda olmuşdur. Türk övladı anadangəlmə döyüşkən ruhlu olmuşdur və ömrünü döyüş-vuruş meydanlarında keçirmişdir. Ordu təşkilatçılığı mükəmməl qurulması səbəbindən türk fatehləri ucsuz-bucaqsız imperiyalar qura bilmiş və onu əllərində saxlaya bilmişlər. Türk fatehləri sərkərdəliyin sirlərini bilmiş, müharibə meydanlarında rəşadət göstərərək tabeliyində olan əsgərlərə nümunə olmuşdur. Oğuz Xaqan, onun övladları, Çingiz xan, Əmir Teymur, Yıldırım Bəyazid, Şah Xətayi, Nadir şah Əfşar, Ağa Məhəmməd xan Qacar güclü hərbi sərkərdə və fatehlər kimi tarixdə qalmışlar.

Hacib orduya qarşı səxavətli olmağı təbliğ edir. Onun fikrincə, pul, bəxşiş əsgərlərə əsirgəmədən verilərsə, əsgər də canını əsirgəmədən ölkə, vətən yolunda qoyar. Əmir Teymurun tüzüklərində, Oğuz Xaqanın qələbə tarixçəsində, Qazan xanın islahatlarında orduya xüsusi diqqət ayrıldığını müşahidə edirik. Böyük fateh, siyasətçi Əmir Teymur 11-ci gənəşiyində yazır: "...Bu

məsələdə əsgərlərim mənim tərəfimi saxlamadılar. Əsgərlərimlə dil tapmağa çalışdım. Bundan ötrü bəzilərinə mürüvvət, mehribançılıq göstərdim, başqaları ilə razılığa gəlməyə çalışdım, başqa bir dəstəni isə dünyanın malı ilə özümə yaxınlaşdırmaq istədim. Sözün qısası, məramım bu idi ki, sözün gücüylə, əhd peymanla, vədlərlə əsgərlərimin hamısının könlünü alım" (Əmir Teym. vəs., 1991, 23). Tüzüklərindən məlum olur ki, Əmir Teymur hər qələbəsindən sonra əsgərlərinə mal-pul, torpaq, mükafat verərək onları döyüşə ruhlandırırmış. Ölkənin rifahı və sabitliyi üçün ordunun ruh yüksəkliyi əsas şərtdir. Hacib əsərində bunu diqqətə çəkmişdir. Burada ordunun təşkili, ordu başçısının məziyyətləri məsələsindən danışarkən onun da düzgün siyasətlə idarə olunduğunu göstərir. Ordu başçısı düşmənə qarşı amansız, xalqına qarşı fədakar olmalı, müharibə meydanında fəndgir, bütün hiylələri, manevrləri bilən, hər cür vəziyyətdən baş çıxaran olmalıdır. Ordu başçısı adi döyüşçü deyil, onda həm vəhşi heyvan, həm də insan əlamətləri var:

Cəngdə şir biləkli, aslan ürəkli,

Mərd gərək... gözündə düşmənin şəkli...

Donuz tək hücumlu, qurd gibi cəsur,

Öküz tək qisascıl, ayıtək fəndgir.

Qızıl tülkü təki usta, hiyləgər,

Bir qara nər gibi kinli, hünərvər.

Ala qarğa gibi ayıq-sayıq sən,

Qaya quzğunutək uzağı görən.

Cəsarətdə arslan, cəldlikdə qaplan,

Gecələr ana tək uyğusuz qalan... (Balasaqunlu, 2003, 155).

Ordunun kəşfiyyatçısı, avanqardı, bayraqdarı, keşikçisi, döyüş taktikası düzgün seçilərsə, qələbəyə təminat var  deməkdir. Düşməni məhv etməyin 2 yolu var: hiylə və sayıqlıq. Hücum planı gecə həyata keçirilməlidir, düşməni qəfil yaxalamaq onu çaş-baş salar və məğlub edər. Qoşunun hamısı müharibə meydanında vuruşmaz, bir hissəsi pusquda olmalı, seçilmiş döyüşçülər hər tərəfdən döyüşə başlamalıdır. Döyüşçüləri pul və hədiyyələrlə mükafatlandırıb həvəsləndirmək, əsir düşənləri pul verib qaytarmaq da müharibə qanunlarına daxil edilmişdir.

Ölkənin qüdrəti vəzirin və ordunun əlindədir. Əgər onlar düzgün seçilmişdirsə o xalqa zaval yoxdur. Vay o gündən ki, ölkə nadürüst acgözlərin əlinə keçə, o zaman xalqın və ölkənin məhv olması labüddür. Hacib bu faktoru əsərində dönə-dönə vurğulayır:

Ögdülmüş söylədi – Xoşbəxt Elbaşı,

Bu iki sənəti duy yaxşı-yaxşı...

WOLLT, 2020; 1(1), 59-70

Sərkərdə - bir aləm, vəzir - bir aləm,

Biri qılınc tutur, o biri qələm.

Xalqın cilovunu iki əl tutur,

İkisi bir olsa, nur üstünə nur! (Balasaqunlu, 2003, 161).

Hacib vəzirin seçilməsi, onun xasiyyətləri haqqında dəyərli fikirlər irəli sürür. Vəzir sonsuz (qısır) olmamalı, gözü-könlü tox, sözü, əməli düz, abırlı, həyalı, elmli, qabiliyyətli, namuslu adam olmalıdır. Vəzir hər bir işdə bəylə məsləhətləşib doğru qərar qəbul etməlidir. Əgər vəzir ali keyfiyyətlər daşıyırsa onun ölkəsi öndə gedən olacaqdır.

Haciblik sarayda yüksək vəzifələrdən sayılmış, şaha yaxın adamlardan hesab olunmuşdur. Hacibin birinci məziyyəti elmli, savadlı, dünyagörüşlü olmasıdır. Bundan başqa, yaddaşı möhkəm, zehni iti, təmizkar, boy-buxunlu, saqqalsız, xoş görünüşlü, comərd, rüşvətə, tamahkarlığa meyl etməyən olmalıdır. Hacib xalqla tez-tez təmasda olan adamdır, buna görə də qanunları gözəl bilməli, xalqın dərdinə çarə tapmağı bacarmalıdır:

Qanun keşikçisi, zirəng, çevik, mərd,

Hacib yer üzündə ən güclü xilqət! (Balasaqunlu, 2003, 164).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu keyfiyyətlər Yusif Balasaqunluda olduğuna görə qüdrətli oğuz hökmdarı Qaraxan oğlu Buğra xan onu sarayın yüksək vəzifəsinə – hacibliyə təyin etmiş və şair uzun illər bu vəzifədə xidmət etmişdir[3].

Əsərdə sarayın mühafizəsinin təşkili, xəzinədarın məziyyətləri, dövlət xəzinəsinin qorunması və artırılması qaydaları, süfrə və içki məsələlərinin təşkili, xidmətçilərin işinə qiymət verilməsi və onların mükafatlandırılması, saray adamları ilə münasibət, rəftar qaydaları, bəylik və bəyliyə verilən qiymət barədə dəyərli fikirlərə rast gəlirik. Bunların hər biri dövlətin yüksəlişində, inkişafında əvəzsiz rola malikdir. Burada, xüsusilə, elçilərin seçilməsi və vəzifələri, katibin dövlətin xarici siyasətində rolu məsələlərinə toxunulmuşdur. Səfir və dövlət katibi əsas vəzifələrdən olduğuna görə onların təyinatı və

[3] Y.Balasaqunlunun bu əsəri yazdıqdan sonra Buğra xanın sarayında haciblik vəzifəsinə təyin olunduğu yazılır. Lakin bu məlumat şübhəlidir, çünki, saray qayda-qanunlarını, saray adamlarının xasiyyətini, idarəçilik məziyyətlərini, kəşfiyyat və hərb sirlərini, xarici və daxili siyasəti, iqtisadiyyatın gələcək planlarını sarayda qulluq etməyən adamın bilməsi namümkündür. Bundan başqa əsərin bir yerində o, sarayda dəfələrlə dilinin bəlasına düşdüyünü və başını salamat saxlamaq üçün dilinin kəsilməli olduğunu bildirir. Deməli, bu əsər yazılana qədər və sonra da o, sarayda xidmət etmişdir. Əsərin bütün hissələrində onun sarayda qulluq etməsi aydın bəlli olur. Üçüncü tərəfdən, Buğra xan yalnız bir əsərin yazılmasına görə kimisə sarayda haciblik kimi məsuliyyətli, tələbkar vəzifəyə təyin etməzdi, burda, şübhəsiz ki, şəxsi məziyyətlər də əsas götürülür, Tanrının verdiyi ağıl, qabiliyyət, gözəl görünüş, bəxt və s. əlamətlər əsas rol oynayır. Bu keyfiyyətlər onu saraya aparmış və orada ulduzu parlamışdır.

işləri haqqında azacıq şərh vermək məqsədəuyğundur.

Elçi (səfir) kimdir və necə olmalıdır? Şairin fikrincə, elçi həm ədəbiyyatı, incəsənəti, həm də riyaziyyatı mükəmməl bilməli, yazı qaydalarını mənimsəməli, bir neçə dil bilməlidir. Bundan başqa, xalq oyunlarını və peşələrini – şahmatı, nərdi, çövkanı, ovçuluğu da bacarmalıdır. Ən əsası sirr saxlamağı bacarmalı, hazırcavab olmalıdır:

Elçinin silahı müdrik sözüdür,

Tapar dil oyunu olsa sözü dürr (Balasaqunlu, 2003, 175).

Şairin saray təcrübəsindən aldığı qənaətə görə, dövlət sirlərini yalnız iki adam bilir: vəzir və katib. Katibin gözəl xətti və yazı üslubu olmalıdır, çünki, o başqa dövlətlərlə yazışmalar aparır. Katibin köməkçisi alimlərdir. Əgər düşmən tərəfə məktub yazmaqda çətinlik varsa, onda alimin köməyindən istifadə olunur, çünki, elə şeylər var ki, onu ancaq həmin sahənin mütəxəssisi bilir, düşməni qaçılmaz arqument qarşısında qoymaq üçün alimin biliyindən istifadə olunur:

Üç mərdə güvənib bizim Elbəyi,

Təzələr aləmi, gülər diləyi.

Elm ilə aparar siyasətini,

Əql ilə göstərər məharətini

Qılınc fəth eyləyər özgə ölkəni,

Qələm kəşf eyləyər qızıl mədəni (Balasaqunlu, 2003, 178).

Şair məsnəvidə bir çox vəzifələrdən söz açır, hər vəzifənin də öz tələbatını, qayda-qanunlarını göstərir. Vəzifəyə seçilmək əsas şərt deyil, əsas olan vəzifədə qalmaq və yüksəlmək, saraydakı çəkişmələrdən uzaq olmaq, dövlət başçısının gözündən düşməməkdir. Saray çox mürəkkəb və ziddiyyətli yerdir, hər adam orada baş çıxara bilməz. Ağıllı və qabiliyyətli adamların çox zaman saray çəkişmələrinin qurbanı olduğunu, işdən çıxarıldığını, həbs olunduğunu, hətta öldürüldüyünü tarixi qaynaqlardan görə bilirik. Sarayda hamı mehriban, xoşsifət, ədalətli olmur, bədxah, paxıl, qərəzli, xəbərçi, ağla gəlməyən bir səbəb tapıb kiminsə evini yıxan adamlar da sarayda həmişə olub. Hacib saray adamlarını yaxşı tanıdığından bu məsələyə də münasibətini bildirib. Sarayda vəzifə tutan adamın bir qulağı kar, bir gözü kor (məcazi mənada) olmalıdır. Hacib özü nə qədər ehtiyatla davransa da saray bədxahlarının tələsinə düşdüyünü etiraf edir:

Çox bəlaya saldı öz dilim məni,

Başım kəsilməmiş kəsin dilimi (Balasaqunlu, 2003, 33).

Şair yalançı, böhtançı, cahil, qeybətcil, tamahkar, içki və ehtiras düşkünlərindən uzaq olmağı məsləhət görür. Şair sadə xalq kütlələriylə ehtiyatla davranmağı, xalqın aşağı təbəqəsi ilə yaxınlıq

WOLLT, 2020; 1(1), 59-70

etməməyi önə çəkir:

Çoxları yaşayır tamam nizamsız,

Yeməkdir, içməkdir, qayğısı yalnız... (Balasaqunlu, 2003, 267).

Şair belə məqsədsiz, nizamsız yaşayan adamların heç bir işə yaramadığını, nə ziyan verən, nə də xeyir verən olduğunu göstərir. Onlarla mümkün qədər az danışmağı və az əlaqə saxlamaq lazım olduğunu bildirir. Şair peyğəmbər nəslindən olan adamların əziz tutulub, hörmət edilməli olduğunu göstərir. Onların dilləri acı ola bilər, lakin ürəkləri təmizdir. Haqq adamları həmişə düz fikirləşib düz söz demişlər. Düz söz isə həmişə acı olur və insanlar bunu acıdillik kimi qəbul edirlər, acıdil olmaq insanlar tərəfindən xoş qarşılanmır, şair özü də bunu yaxşı başa düşür, buna görə də əsərin bir çox yerlərində vəzifə, qulluq sahibi olan adamın şirindil və qılıqlı olmasını tələb edir; yalnız şirin dillə ilanı yuvasından çıxarmaq olar, zalımı yola gətirmək, mümkünatı çətin işləri yoluna qoymaq olar.

Orta əsrlərdə sarayda ovsunçular, yuxuyozanlar və münəccimlər saxlanılırdı. Onlar hər bir işdə hökmdara məsləhət verir, xidmətlərini göstərir, gələcəkdə baş verən hadisələr haqqında xəbərdarlıq edirdilər. Şair onların hərəsinin öz yeri olduğunu, şər qüvvələrdən qorunmaq üçün sarayda lazım olduğunu göstərir. Yuxuyozma və nücum elmi qədim və orta əsrlərdə ən yayğın elm sahələrindən olmuşdur. Xalq arasında yuxu ilə bağlı inamlar hələ də qalmaqdadır. Şair pis yuxunun da, yaxşı yuxunun da yaxşılığa yozulmasını, pis yuxu görülərsə yoxsullara və kimsəsizlərə nəzir verilməsini məsləhət görür.

Şair münəccimlərlə ülfətdən bəhs edərkən astronomiyanın gərəkli elm sahəsi olduğunu, dünya işlərinin, hətta axirətin də ulduzlarda əks olunduğunu diqqətə çatdırır. Bunları bilmək üçün isə hesab işlərini, cəbri, həndəsəni, fizikanı, göyün, yerin sirlərini bilmək vacibdir.

Şair məsnəvidə gənəşik, məsləhət alma məsələlərinə də yer ayırmışdır. Yaxşı məsləhət həkim resepti qədər dəyərlidir. Məsəl var, deyərlər: məsləhətli don gen olar.

Gənəşən götürər səmər, bar-bəhər,

Döyər dizlərinə gənəşməyənlər (Balasaqunlu, 2003, 345).

Böyük fatehlər, sultanlar, şahlar gənəşmədən bir addım atmamışlar, yüz ölçüb, bir biçiblər. Əmir Teymur tüzüklərində yürüşlərinin və müharibələrinin, ölkəni səhmana salmağının, düşmənlərlə barışmağının, savaşmağının, bir çox işlərinin məcmusunun, ölkəni idarə etməyin gənəşiklər yolu ilə qaydalaşdırdığını, planlaşdırdığını, buna görə də heç vaxt məğlub olmadığını bildirmişdir. Onun Toxtamış xanı məhv etmək, Bağdadı, Şirazı tutmaq haqqında, Hindistanı fəth etmək haqqında əyan-əşrəfi ilə məsləhətləşdiyini, onların rəyini öyrənəndən sonra narazı qalanları yağlı vədlərlə, şirin sözlərlə yola gətirdiyini tüzüklərindən öyrənirik. Oğuz Xaqan Firəngistanı tutmaq üçün Təkfurun ağıllı məsləhətini qəbul edir və qələbə çalır (Oğuznamə, 1992, 27). Oğuz yürüş elədiyi ölkələrdə baş

WOLLT, 2020; 1(1), 59-70

köməkçisi Qara Sülükdən məsləhət alması ilə çətinlikləri aradan qaldırır. Qara Sülük isə məsləhətləri atası Yuşi Xocadan alırdı.

Bu əsərdə dövlətin, vəzifənin, şan-şöhrətin gəldi-gedər olduğu, yalnız nəfsinə sahib çıxıb xalq yolunda çalışmağın xoşbəxtliyin əsas meyarı olduğu təbliğ olunur. Türkün qurduğu dövlət xalqa, millətə xidmət etmirsə, orada düzlük, ədalət, qayda-qanun yoxdursa, bu məmləkətin başında duranları türk qanlı saymaq olmaz, bu məmləkətin sonu viranə, xalqı isə bədbəxtdir:

Kimdir bu dünyada səxavətli ər –

Canını xalq üçün fəda edənlər (Balasaqunlu, 2003, 371).

"Qutadqu-bilik" əsərində Y.X.Hacibin təsvir etdiyi türk dövlət modelinin sxemini sizə təqdim edirik(şəkil 2).

**Nəticə**

XI əsr mütəfəkkiri Yusif Xas Hacibin "Qutadqu-bilik" əsəri türk dövlətçiliyinin idarəçilik mexanizmini, strukturunu öyrənmək baxımından əhəmiyyətlidir. Burada dövlətin ən yüksək rütbəlisindən tutmuş ən aşağı işçisinə qədər seçilməsi, idarə olunması, fiziki və şəxsi keyfiyyətləri, ağlı, qabiliyyəti, bacarığı və s. bu kimi məsələlər işıqlandırılmışdır. İdeal dövlət başçısı Gündoğdunun vəziri Aydoldu və onun oğlu Ögdülmüşlə mühakiməsi xalqın və dövlətin idarə olunması haqqında geniş bilgi verir. Ögdülmüşün qardaşı Ozğurmuş qənaətin, zahidliyin rəmzi kimi əsərdə yer almışdır. Dövlətdə dünyəvi məsələlərlə yanaşı dinə də yer ayrılmalı olduğu göstərilmişdir. Bu əsər türk xalqlarının ana kitabıdır, hər bir hökmdara, dövlət xadiminə gərəkli töfhədir. Yazılmasından bu yana 1000 il keçməsinə baxmayaraq, əsər bu gün də aktuallığını saxlayır və xoşbəxtliyin qızıl açarı kimi dəyərini qoruyur. Əsər Balasaqunlunun ömrünün yetkin çağlarında saraydan topladığı təcrübəni ələ alaraq yazıldığını göstərir.

**Şekil 1. "Qutaqqu-bilik" əsərində kosmoqonik üçlük: Günəş – Ay – Planet**



Planet sarayı, Günəş və Ay hakimiyyəti təmsil eder.

WOLLT, 2020; 1(1), 59-70

**Şekil 2. "Qutadqu- bilik" əsərində Y.X.Hacibin təsvir etdiyi türk dövlət modelinin sxemi**



WOLLT, 2020; 1(1), 59-70

***QAYNAQLAR***

Balasaqunlu Y (2003). *Qutadqu bilik*. Bakı: Gənclik.

Cəlilov E. (1995). *Azərbaycanın dövlət və hüququ (XIII-XIV yüzillər)*. Bakı: Dövlət Kitab Palatası.

Cəlilova A. (2017). Xalq yaradıcılığında türk ədaləti motivi. *AMEA Elm və həyat. Elmi-populyar Jurnal,* (4), 463

*Əmir Teymurun vəsiyyətləri*. (1991). Bakı: Azərnəşr

Rəşidəddin F. (2003). *Oğuznamə*. Bakı: Azərbaycan Milli Ensiklopediyası NPB.

Nizamülmülk. (1989). *Siyasətnamə*. Bakı: Elm.

*Qabusnamə*. (2006). Bakı: Şərq-Qərb.

Бакиханов А.К. (1991). Гюлистан-и Ирам. Баку: Элм.